https://doi.org/10.59849/3006-1342.2026.2.64
UOT 94(479.24)

*Namlet Əli oğlu Allahverdiyev*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Elmi işçi*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Ruziyə Akif qızı Abdullayeva*
*Böyük laborant*
*E-mail: abdullayevaruziye4@gmail.com*
*ORCID ID: https://oircid.org/0009-0002-6013-4070*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Elnur Tanrıverdi oğlu Məmmədov*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Böyük laborat*

# CƏLALƏDDİNİN AZƏRBAYCANI (GƏNCƏNİ) İŞĞAL ETMƏSİ

*Məqalədə XIII əsrin əvvəllərində Mərkəzi Asiyada yaranmış güclü Monqol dövlətinin yüksəlişi və onun Azərbaycanın siyasi vəziyyətinə təsiri təsvir olunur. Monqolların işğalçılıq yürüşləri region ölkələri üçün ciddi təhlükə yaratmış, parçalanmış vəziyyətdə olan vilayətlər isə bu təhlükəyə qarşı birgə müqavimət göstərə bilməmişdir. 1219-cu ildə monqollar Xarəzmşahlar dövlətinə hücum etdikdən sonra Sultan Əlaəddin Məhəmməd məğlub olmuş, onun oğlu Cəlaləddin Mənkburnu mübarizəni davam etdirmişdir. 1225-ci ildə Cəlaləddin Azərbaycana yürüş edərək Marağanı, daha sonra Təbriz və Gəncəni öz hakimiyyəti altına almışdır. O, bəzi şəhərlərdə abadlıq işləri aparmış, yerli əhali ilə münasibətlərdə ədalətli davranmağa çalışmış, lakin qoşunlarının özbaşınalığı və ağır vergi siyasəti əhali arasında narazılıq yaratmışdır. Atabəy Özbəyin hakimiyyətinin zəifləməsindən istifadə edən Cəlaləddin Azərbaycanın böyük hissəsində hakimiyyətini möhkəmləndirmiş, Gürcüstan üzərinə uğurlu yürüşlər təşkil etmiş və bölgədə siyasi nüfuzunu artırmışdır. Bununla yanaşı, onun dövründə vergilərin iki-üç dəfə artırılması və əhalinin ağır istismara məruz qalması xüsusilə Gəncə şəhərində sosial gərginliyi dərinləşdirmişdir. Nəticədə 1231-ci ildə sənətkar Bəndərin rəhbərliyi ilə Gəncədə xalq üsyanı baş vermiş, üsyançılar Xarəzm qarnizonunu məğlub edərək şəhərdə hakimiyyətə qarşı çıxmışlar. Məqalədə həmçinin gürcülərin Gəncəyə hücumları, Azərbaycan uğrunda siyasi mübarizələr, Atabəylər dövlətinin süqutu və Cəlaləddin Mənkburnunun fəaliyyətinin Azərbaycanın XIII əsr tarixində tutduğu mühüm yer geniş şəkildə işıqlandırılmışdır.*

*Açar sözlər:* Azərbaycan, Arran, Təbriz, Gəncə, Atabəy Özbək, Xarəzmşah Cəlaləddin, monqol yürüşləri, Bəndər üsyanı

## *Giriş*

XIII-əsrin əvvəllərində Mərkəzi Asiyada yaradılmış güclü Monqol dövləti qonşu ölkələrə hərbi yürüşlər edirdi. Onların hərbi qüdrəti işğalçılıq siyasəti haqqında səyyahlar, tacirlər qopxulu məlumatlar verirdilər. Orta Asiyada mövcud olan vilayətlərin aralarında birliyin olmaması səbəbindən onlar ayrılıqda heç nəyə nail ola bilmirdilər. Təkcə Xarəzmşahlar dövləti istisna təşkil edirdi. Onlar monqollara qarşı mibarizə aparırdılar.

XIII-əsrdə Azərbaycanda Atabəylər və Şirvanşahlar dövlətləri mövcud idi. ”Marağada isə Rəvvadilər nəslindən Ağsunqurilər (1108-1227-ci illər) hakimiyyət sürürdü [1, s. 335]. XII əsrdə Eldənizlər dövləti tədricən öz qüdrətini itirirdi. Mərkəzi Asiyada yeni yaradılan

Monqol dövlətinin rəhbəri Çingiz xan [1206-1227-ci illər] qonşusu olan ölkələrə hərbi yürüşlər təşkil edirdi. 1219-cu ildə monqollar Xarəzmşahlar dövlətinə hücum edərkən Xarəzmşah Məhəmməd və oğlu Cəlaləddin İrana qaçdılar. Xarəzmşah Əlaəddin Məhəmmədin [1200-1220] böyük oğlu Cəlaləddin Mənkburnu qoşun toplayıb Çingiz xanla döyüşmək məqsədilə Hindistana pənah apardı. Hicri 622 (miladi 1225) ci-ildə Cəlaləddin Azərbaycanı işğal etmək məqsədilə qoşunla Dəquqədən hərəkət edib Marağaya gəldi və onu işğal etdi. Bu şəhər onun xoşuna gəldi, ona görə şəhəri təmir etdirdi. O, Marağaya çatanda ögey qardaşı Qiyasəddinin dayısı əmir İğan Taisinin ondan iki gün əvvəl Həmədana gəldiyini xəbər verdilər. İğan Taisi 50 min atlıdan ibarət əsgər toplayıb, Azərbaycanın bir çox yerlərini qarət etdiyini və dəniz ətrafında olan Arran şəhərlərinə gedib orda qışladığını öyrəndi. O, ikinci dəfə yenə Azərbaycanı soya-soya Həmədana qayıtdı [2, s. 186]. Onun Həmədana gəlməsinin səbəbi xəlifə ən Nəsr Lidinallahın ona məktub göndərib Həmədana getməsini əmr etməsi idi. Həmədan və başqa yerləri iqta şəklində ona vermişdi. O, da ona əmr olunduğu kimi o yerlərə sahib olmaq üçün gəlmişdi. Cəlaləddin bunları eşitdikdə öz yaxınları ilə birlikdə gecə gedib İğan Taisiyə çatdı. İğan Taisi Azərbaycan və Arrandan qənimət aldığı mal-qara və qoyunları tamamilə öz qərargahı ətrafına buraxmışdı. Cəlaləddin gəlib bu davarları aldı. Səhəri gün İğan Taisinin əsgərləri Cəlaləddinin qoşunlarını və sultanın başı üzərində qaldırılmış hökmdarlıq çətirini gördükdə onun şəxsən döyüş meydanında olduğunu anladılar və ruhdan düşdülər. Onlar Cəlaləddinin Dəquqədə olduğunu zənn edirdilər. İğan Taisi öz arvadı, Cəlaləddinin bacısını onun yanına göndərib, ondan aman istədi. Cəlaləddin ona aman verdi və yanına gətirdi. Onun əsgərləri də Cəlaləddinə tabe oldular [2, s. 186]. Cəlaləddin oradan Marağaya qayıtdı.

Azərbaycan və Arran hakimi Özbək ibn Pəhləvan da Cəlaləddinin qorxusundan Təbrizdən qaçıb Gəncəyə getmişdi. Cəlaləddin Təbriz rəisinin yanına bir nəfər göndərib əsgərlərini azuqə və sairə almaq üçün onların şəhərinə gəlməsinə icazə istədi. Onlar Cəlaləddinin xahişini qəbul etdilər. Əsgərlər şəhərə gələrək ərzaq, geyim və s. satır və alırdılar. Ancaq əhalinin mallarına da əl uzadırdılar. Buna görə Təbriz əhalisindən bir neçəsi Cəlaləddinə şikayət etdi. Cəlaləddin onlara nəzarətçi göndərdi və əmr etdi ki, Təbrizdə otursun və əsgərlərinə nəzarət etsin, əgər əsgərlərdən bir adam zülm etsə, onu tutub assın. Bu nəzarətçi də orada oturub, əsgərləri əhaliyə zülm etməyə qoymadı.

Özbəyin arvadı Sultan Toğrul ibn Məlikşahın qızı idi. Bu arvad Təbrizdə oturub ərinin vilayətlərinə hakimlik edirdi. Əri Özbək isə həmişə sərxoşluqda və eyş-işrətdə idi. Təbriz əhalisi məzkur nəzarətçidən şikayət etməyə başladılar və dedilər: “Bu bizdən gücümüzdən artıq şeylər tələb edir” [2, s. 187]. Cəlaləddin əmr verdi ki, hər kəs ancaq gücü çatdığı qədər vergi versin. Ondan sonra onlar da belə etdilər.

Cəlaləddin Özbəyin arvadını Xoya göndərdi və onu müşayiət etmək üçün yanına bir bölük əgkər və böyük rütbəli bir adam da təyin edib, ona qulluq etmələrini əmr etdi. Onlar onu aparıb Xoyda qoyub qayıtdılar. Cəlaləddin Təbrizə gəlib əmr etdi ki, Təbriz əhalisindən onun yanına gəlmək istəyənlərin heç birinə mane olmasınlar. Cəlaləddin əhali ilə yaxşı rəftar edirdi [2, s. 188]. O,deyirdi: “Siz mənim Marağada etdiyim yaxşılıqları, xaraba ikən oranı abad etdiyini gördünüz, indi də mənim sizinlə necə ədalətlə keçinəcəyimi və necə abadlaşdıracağımı görəcəksiniz.” Sultan Cəlaləddin Təbrizdə sultan sarayında minbər qurulmasını və orada müxtəlif əyalətdən 30 ləyaqətli üləma gətirdib öz işləri ilə məşğul olmalarına göstəriş verdi” [3, s. 162].

Sultan Gürcüstanı tərk edib, bir müddət Təbrizdə dayandı və Urxanı yaxınları ilə Gəncəyə göndərdi. Urxan dövlətdə böyük vəzifə sahibi olub, sultanla qan qohumluğu var idi [3, s. 165]. Urxan təcili Gəncənin idarəçiliyini əlində cəmləşdirdi.

Atabəy Özbəyin Gəncə valisi Cəmaləddin əl- Quminin xeyli pulu və dövləti, geniş torpaq sahəsi vardı. O, Gəncənin rəisi kimi şəhəri Urxana verdi və ona xidmət etmıyə hazır

olduğunu bildirdi [3, s. 164]. Sultan Cəlaləddinin vəziri Şərəf əl Mülk onlarla bərabər öz naibi əl-Kafini də Gəncəyə göndərdi ki, şəhərin Urxana verilməsində iştirak etsin. Urxan şəhəri təhvil alanda divan xəzinəsinə əl uzatdı. Onun divan işlərinə qarışmasına hüququ yox idi. Urxanın divan işlərinə qarışmasına etirazdan sonra Urxanla əl-Kafi arasında qarşıdurma başladı. Bu xəbər vəzir Şərəf əl Mülkə çatdı. O, da işin gedişini sultana bildirdi. Vəzir sultandan heç bir şey istəmədiyini, özü üçün yox – dövlət xəzinəsi üçün çalışdığını söylədi. Sultan da Urxanı geri çağırdı. Bundan sonra Urxanla Şərəf əl Mülk arasında narazılıq başladı [3, s. 165].

Cəlaləddin gürcüləri məğlub edib, vilayətlərinə girdikdən sonra əsgərlərini vilayətlərə yaydı və onların orada öz qardaşı Qiyasəddinin komandası altında qalmalarını əmr verib, Təbrizə qayıtdı. Onun Təbrizə qayıtmasına səbəb bu idi ki, o, şəhərin mühafizəsi və əhalini idarə etmək üçün öz əvəzinə vəzirini Təbrizdə qoyub getmişdi. Təbrizin rəisi və ən tanınmış adamı Şəmsəddin ət Tuğrainin başqa əmirlərlə birlikdə Cəlaləddinə qarşı üsyan edib şəhəri Özbəyə qaytarmaq məqsədilə razılaşdıqları Cəlaləddinə çatdı. Onlar Şəmsəddin və ona tabe olanlar belə zənn edierdilər ki, Cəlaləddin gürcü vilayətlərinə getsə də onlara qarşı dura bilməyəcək. Çünki, Özbək ilə gürcülər birləşib onun üstünə gedəcəkdir. "Bu xəbəri Cəlaləddin gürcü mahalında olanda ona çatdırmışdılar. Cəlaləddin gürcülərlə qarşı-qarşıya gəldi və onlarla döyüşüb qalib gəldi" [2, s. 191]. Sultan əsgərlərini Gürcüstanda qoyub özü Təbrizə qayıtdı. Təbrizin başçısı ət-Tuğraini və qeyrilərini tutub, başçını öldürdü, onun köməkçilərini həbs etdi. Xalq Cəlaləddinin bu hərəkətindən razı qaldı.

Cəlaləddin Təbrizdə hakimiyyəti ələ aldıqdan sonra Özbəyin arvadı Sultan III-Toğrul ibn Aslanın qızı ilə evləndi. Cəlaləddinin Gəncəyə gəlməsini eşidən Özbək qorxusundan Gəncədən Naxçıvana Əlincə qalasına sığınmışdı. " O, eşidəndə ki, arvadı könüllü Cəlaləddinə ərə gedib, qəhərdən Əlincə qalasında vəfat etdi." [4, s. 25].

Cəlaləddin Təbrizdən Gəncəyə qoşun göndərdi, onlar Gəncəni aldılar. Sultanın əsgərləri Gəncə ətrafındakı kəndlərdə xalqa əziyyət verir, evləri dağıdırdılar. Hələ Özbək sağ ikən Cəlaləddinə məktub yazıb şikayət etdi: "Mən öz yaxın adamlarıma belə bu cür nalayiq işlər görməyə icazə vermirdim. Təvəqqə edirəm, bu kəndlərə əl uzadanların əlini yığasan.!" Cəlaləddin o qalanı öz əsgərlərindən və başqalarından qorumaq üçün oraya gözətçilər qoydu.

Özbək Əlincə qalasında öləndən sonra Atabəylər xanədanında yeganə şəxs Özbəyin oğlu Xamuş qalmışdı.O, Ravəndüz hakiminin qızı Mələkə xatunla evlənmiş və İran şahlarından Keykavusun çox qiymətli tarixi bir kəmərini əldə etmişdi. Ortada qalıb, kar və lal olduğu üçün ona "Xamuş" deyirdilər. "Anası Cəlaləddinə ərə getdikdən sonra ümüdi Cəlaləddinə qalmışdı. O, həmin kəməri Cəlaləddinə bağışladı, ümid edirdi ki, Cəlaləddin ona sarayda bir iş verər. Bu istəyi gözündə qalan Xamuş Ələmuta getdi." [2, s. 25]. "Naxçıvanın hakimi Xamuş monqolların yanına gəldikdən sonra onlar qırğını dayandırdılar və ona tamğa verdilər" [3, s. 228].

Sultan Cəlaləddinin hakimiyyəti dövründə xərac iki və bəzən üç qat çoxalmışdı. Azərbaycanda o cümlədən Gəncədə əhalidən alınan vergilərin hesabına vergi yığanlar çox varlanmışdılar [4, s. 23]. Cəlaləddinin Gəncədə hakimlik müddətində istismarın həddi aşmışdı. Xalqın güzəranındakı çətinlik o yerə çatmışdı ki, 1231-ci ildə sənətkar Bəndərin (?-1231) rəhbərliyi altında Cəlaləddin və onun saray əyanlarına qarşı xalq üsyana qalxdı. "Nə zaman ki, Gəncənin üsyankar ünsürləri şəhərdə olan xarəzmləri öldürdülər, onlar sanki, qaranlıqdan yox olmuşdular və birdən aydınlığa çıxdılar" [5, s. 385]. Üsyana qalxmış xalq Cəlaləddinin Gəncədəki hərbi qarnizonunu məhv edib, şəhəri ələ keçirdilər. "Bəndərin rəhbərliyi ilə şəhərdəki sultan taxtını dağıtdılar, (Bu taxt sultan Məlikşah dövründə 1106-1118-ci illərdə fil sümüyündən hazırlanmış, qiymətli zinətli daşlarla süslənmişdi) varlıların əmlakları müsadirə olundu. Üsyan başlayanda Cəlaləddin Gəncədə yox idi. O, bu hadisəni eşitcək Gəncəyə gəldi və üsyanı danlşıqlar yolu ilə yatırmaq istədi. Şəhəri təslim edəcəkləri

təqdirdə üsyançıları bağışlayacağına söz verdi. Üsyançılar bu təklifi rədd etdlər. Son nəfəsə qədər vuruşmaq qərarına gəldilər

622(1225)-ci ildə gürcülər yığışıb Arran şəhərlərindən olan Gəncəyə gəlib onu mühasirə etmək istədilər. Ona qarşı bacardıqları qədər qüvvə hazırladılar. Çünki Gəncə əhalisinin sayı çox, özləri də güclü idilər. “Onlar uzun müddət gürcülərlə müharibə edərək, böyük igidliklər göstərmişdilər” [1, s. 184]. 1225-ci ildə gürcü feodalları Gəncəyə hücum etdilər. “Gəncəlilər tərəfindən məğlub edildilər”. Allah öz qəzəbi ilə kafirləri əliboş qaytardı [1, s. 184].

*Nəticə*

Cəlaləddin Məngburnunun Azərbaycanın, o cümlədən Gəncənin işğalı XIII əsrin əvvəllərində regionun siyasi tarixində mühüm hadisələrdən biri olmuşdur. Onun yürüşləri nəticəsində Gəncə Xorəzmşahlar dövlətinin nəzarətinə keçmiş, şəhərin siyasi və hərbi əhəmiyyəti daha da artmışdır. Bununla yanaşı, ardıcıl müharibələr və hakimiyyət uğrunda mübarizələr bölgədə sabitliyin pozulmasına səbəb olmuşdur. Cəlaləddinin fəaliyyəti Azərbaycan torpaqlarının monqol təhlükəsi ərəfəsindəki vəziyyətinə və sonrakı tarixi proseslərə əhəmiyyətli təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Bakı, 2011.
2. Cahangir Zeynaloğlu “Müxtəsər Azərb. Tarixi” Bakı 1993.
3. İbn əl- Əsir. Əl-kamil fi-t-Tarix. Bakı, 1959.
4. Тимохин Д. М. Арабо-персидские источники о восшествии на престол хорезмшаха Джалал ад-Дина Манкбурны // Вестник Института востоковедения РАН. 2021, № 1 (15), s. 77-88.

УДК 94(479.24)

*Намлет Аллахверди оглы Аллахвердиев,*
*Рузия Акиф кызы Абдуллаева,*
*Эльнур Танрыверди оглы Мамедов*
*Гянджинское Отделение НАНА*

ЗАХВАТ ДЖАЛАЛАДДИНА АЗЕРБАЙДЖАНА (ГЯНДЖИ)

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Арран, Тебриз, Гянджа, Атабек Узбек, Хорезмшах Джалал ад-Дин, монгольские походы, Бандарское восстание

В статье рассматриваются возвышение могущественного Монгольского государства, возникшего в начале XIII века в Центральной Азии, и его влияние на политическое положение Азербайджана. Завоевательные походы монголов представляли серьёзную угрозу для стран региона, тогда как раздробленные области не смогли организовать совместное сопротивление этой опасности. После нападения монголов на государство Хорезмшахов в 1219 году султан Ала ад-Дин Мухаммед потерпел поражение, а его сын Джалал ад-Дин Менгуберди продолжил борьбу. В 1225 году Джалал ад-Дин совершил поход в Азербайджан, захватив сначала Марагу, а затем Тебриз и Гянджу. В ряде городов он проводил работы по благоустройству и стремился поддерживать справедливые отношения с местным населением; однако произвол его войск и тяжёлая налоговая политика вызвали недовольство среди жителей.

Воспользовавшись ослаблением власти атабека Узбека, Джалал ад-Дин укрепил своё господство на большей части Азербайджана, организовал успешные походы против Грузии и усилил своё политическое влияние в регионе. Вместе с тем увеличение налогов в два-три раза и усиление эксплуатации населения привели к росту социальной напряжённости, особенно в городе Гянджа. В результате в 1231 году под руководством ремесленника-гончара Бендера вспыхнуло народное восстание, участники которого разгромили хорезмийский гарнизон и выступили против существующей власти.

В статье также освещаются походы грузин на Гянджу, политическая борьба за Азербайджан, падение государства Атабеков и важная роль деятельности Джалал ад-Дина Менгуберди в истории Азербайджана XIII века.

UDC 94(479.24)

*Namlet Allahverdi Allahverdiyev*
*Ruziya Akif Abdullayeva*
*Elnur Tanriverdi Mammadov*
*Ganja Branch ANAS*

THE CONQUEST OF JALALADDIN IN AZERBAIJAN (GANJA)

*SUMMARY*

*Keywords:* Azerbaijan, Arran, Tabriz, Ganja, Atabey Uzbek, Khwarazmshah Jalaladdin, mongol campaigns, Bandar uprising

The article examines the rise of the powerful Mongol Empire, which emerged in Central Asia at the beginning of the 13th century, and its impact on the political situation in Azerbaijan. The Mongol conquests posed a serious threat to the countries of the region, while the fragmented territories were unable to organize joint resistance to this danger. After the Mongol attack on the Khwarazmian state in 1219, Sultan Ala ad-Din Muhammad was defeated, and his son Jalal ad-Din Mingburnu continued the struggle. In 1225, Jalal ad-Din launched a campaign into Azerbaijan, capturing first Maragha and then Tabriz and Ganja. In several cities, he carried out construction and improvement works and sought to maintain fair relations with the local population; however, the arbitrariness of his troops and heavy taxation policies caused dissatisfaction among the inhabitants.

Taking advantage of the weakening of the authority of Atabeg Uzbek, Jalal ad-Din strengthened his dominance over most of Azerbaijan, organized successful campaigns against Georgia, and increased his political influence in the region. At the same time, the increase in taxes two- to threefold and the intensification of exploitation led to growing social tension, especially in the city of Ganja. As a result, in 1231, a popular uprising broke out under the leadership of the potter craftsman Bender, during which the participants destroyed the Khwarazmian garrison and opposed the existing authority. The article also highlights Georgian campaigns against Ganja, the political struggle for Azerbaijan, the decline of the Atabeg state, and the important role of Jalal ad-Din Mingburnu in the history of 13th-century Azerbaijan.

***Daxil oldu: 05.05.2026-cı il***